UOT 94 (479.24)

# AVROPA ŞURASI VƏ ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU HAQQINDA

**T.T.VƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***veliyevtogrul@yandex.com***

*Məqalədə Avropa Şurası çərçivəsində ədalətli məhkəmə araşdırması hüququnun təmini məsələsi və Avropa dövlətlərinin daxili qanunvericiliyində bu məsələnin effektiv realizəsi araşdırılmışdır.*

**Açar sözlər:** Avropa Şurası, məhkəmə araşdırması, insan hüquqları, milli qanunvericilik

Nizamnamə əsasında 1949-cu ildə yaradılmış bu beynəlxalq təşkilatın fəaliyyəti insan hüquqlarının qorunması, hüquqi və humanitar əməkdaşlıq, sosial sfera, mədəni sahədə qarşılıqlı əlaqə, məlumatın yayılması və təbiətin mühafizəsi problemlərində cəmləşmişdir. Bəlkə də məhz buna görə, insan hüquqlarının, o cümlədən ədalətli məhkəmə araşdırması hüququnun qorunmasının ən təsirli mexanizmi bu təşkilat çərçivəsində yaradılmışdır. Avropa Şurasının mühüm orqanı kimi Parlament Assambleyası 291 üzvdən ibarət olan müşavirə xarakterli orqandır. Avropa Şurasına daxil olan zaman hər bir dövlət öz üzərinə öhdəlik götürür (6, 218).

Avropa Şurası Nazirlər Komitəsi Avropa Şurası üzv dövlətlərinin xarici işlər nazirlərindən ibarətdir. Onun səlahiyyətlərinə Avropa konvensiyalarının və sazişlərinin təsdiqlənməsi, eləcə də tövsiyələrin hazırlanması daxildir. Ədalətli məhkəmə araşdırması məsələsi dəfələrlə Komitənin baxış predmeti olmuşdur, bu məsələyə bir sıra sənədlər həsr olunmuşdur. Məsələn, 19 yanvar 1973-cü il 11 (75) saylı Qətnamə-«İttiham olunanın yoxluğu şəratində araşdırmanı tənzimləyən cəhətlər haqqında». Nazirlər Komitəsi dövlətlərə bir sıra minimal qaydaları qəbul etməyi tövsiyə edir. Bunlardan, heç bir şəxsin işinə, əgər ona məhkəməyə gəlməyə və öz müdafiəsini təşkil etməyə imkan verən zəruri zaman kəsiyində çağırış vərəqələri göndərilməmişsə, onun bilərəkdən ədalət mühakiməsindən gizlənməsi halı istisna olunmaqla baxıla bilməz, çağırış vərəqələri ittiham olunanın məhkəmə

araşdırmasına qatılmayacağı halında ortaya çıxa biləcək nəticələri göstərməlidir, məhkəmə, araşdırmaya gəlməyən ittiham olunan şəxsə çağırış vərəqələrinin göndərildiyi müəyyənləşdirilən zaman, əgər ittiham olunan şəxsin qatılmasının məcburi olduğunu və ya onun qatılmaması üçün səbəblərin olduğunu təsbit edərsə, məhkəmə araşdırmasını təxirə salmalıdır və s. kimi tövsiyələri misal göstərə bilərik.

Avropa Şurası Nazirlər Komitəsinin R 11 (80) «Məhkəməyə qədər saxlanılma haqqında» Tövsiyəsinin ədalətli məhkəmə araşdırmasını təmin edən bir sıra müddəaları xüsusi qeyd edilə bilər.

Digər mexanizm kimi çıxış edən İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyası əsasında təsis edilmişdir və məhz onun insan hüquqları haqqında normalarının təmin edilməsinə yönəldilmişdir. Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsində ədalətli məhkəmə araşdırması hüququn məhkəməyə müraciət etmək kimi elementi də tez-tez pozulur. Sözsüz ki, Avropa İnsan Hüquqları Konvensiyasının ən böyük mənfi çatışmazlığı beynəlxalq orqanlara müraciət etmə hüququnun dəqiq ifadə edilmiş olmamasıdır. Onu yalnız dolayı yolla 34 və 35-ci maddələrin «Məhkəmə şikayətləri qəbul edə bilər...», «Məhkəmə işi baxılmağa qəbul edə bilər...» kimi ifadələrindən çıxarmaq olar. Məhkəmənin şikayətləri qəbul etmək imkanının olması kimlərinsə şikayət vermə hüququnun olmasını, yəni beynəlxalq orqana müraciət etmək hüququnun olmasını ifadə edir.

Avropa İnsan Hüquqları Məhkəməsinin fəaliyyət qaydasında bu hüququn həyata keçirilməsi üçün bir sıra maneələr gizlənmişdir. Məlum olduğu kimi, işin baxılmağa hazırlanması mərhələsində Məhkəmənin iş üzrə layihəni hazırlayan əməkdaşlarının fəaliyyət göstərdiyi Katibliyi əsas rol oynayır. Sonra aparatın müvafiq işi hazırlayan əməkdaşı (şikayət edilən dövlətin hüquqşünası) məhkəmə iclasında iştirak edir.

Ədalət mühakiməsi sahəsində əhəmiyyətli fəaliyyəti əksəriyyəti istənilən Avropa dövlətinin qoşulması üçün açıq olan 160-dan çox konvensiyanı qəbul etmiş Avropa Şurası həyata keçirir. Avropa Şurasına yönəlmə bu hökumətlərarası və parlamentlərarası əməkdaşlıq təşkilatının insan hüquqlarının müdafiəsini təmin edən effektiv nəzarət mexanizmləri sistemi sayəsində Avropada ən nüfuzlu olması ilə izah edilir. Avropa Şurasının sənədlərində milli səviyyədə effektiv realizəsini tələb etdiyi insan hüquqları sahəsində əsas standart və prinsiplər müəyyən edilmişdir.

Azərbaycan Respublikası (AR) 2001-ci ildən Avropa Şurasının üzvü rəsmi statusunu aldığına görə, bu təşkilata son illər bizim ölkənin marağı artmışdır. 5 may 1949-cu il tarixli bu təşkilatın Nizamnaməsinin 3-cü maddəsinə müvafiq olaraq, «Avropa Şurasının hər bir üzvü yurisdiksiyası altında olan bütün şəxslərin insan hüquq və əsas azadlıqlarından istifadə etməli olması prinsipini və hüququn aliliyi prinsipini tanımalıdır».

Azərbaycan Respublikasının qoşulmaq haqda ərizəsinə baxan Avropa Şurasının Parlament Assambleyası öz nəticəsində bizim ölkənin bu regionlararası təşkilata üzvlük çərçivəsində həyata keçirməyə can atmalı olduğu cinayətkarlıqla mübarizə üzrə bir sıra öhdəliklər ehtiva etmişdir. Xüsusən, AR Avropa Şurasına daxil olduğu andan Avropa konvensiyalarında təsbit edilmiş əsas prinsiplərə riayət etmək; bütün milli qanunvericiliyin onun prinsip və standartlarına uyğun olması üçün hüquqi islahatları davam etdirmək niyyətindədir.

Avropa Şurasının norma və standartlarını nəzərə almaqla cinayətkarlıqla mübarizə sahəsində Avropa dövlətləri ilə bizim dövlətin əməkdaşlığı hüquqi islahatları sivil və effektiv həyata keçirmək imkanlarını genişləndirir. Qərbi Avropa beynəlxalq sənədləri insan hüquqlarının müdafiəsi və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində AR qanunvericiliyinin və hüquqtətbiqetmə praktikasının analizi və orada istifadəsi üçün əhəmiyyətli maraq kəsb edir.

Cinayətkarlıqla mübarizə sahəsində Avropa Şurasının beynəlxalq-hüquqi aktlarında tənzimlənən məsələlərin sayı geniş və çoxtərəflidir. Onun əsas sənədlərindən bir sırası hüquq ədəbiyyatında kifayət qədər geniş incələnibdir.

Bizi, ilk növbədə cinayət mühakimə icraatı iştirakçılarının dövlət müdafiəsinin prinsip və standartlarını ehtiva edən sənədlər maraqlandırır. Avropa Şurasının üzv-dövlətlərinin hökumətləri və digər hakimiyyət orqanları, eləcə də məhkəmə və qanunverici orqanları bu prinsip və standartlara əsaslanmalıdırlar.

Nəzərdən keçirilən istiqamətdə əsas və konseptual sənəd iştirakçıları yalnız müstəsna olaraq Şuranın üzvləri olmalı olan 4 noyabr 1950-ci il tarixli (Roma şəhəri) İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası sayılır. Bu sənəd ictimai qayda haqqında hüquqi müddəaların realizəsinin mexanizmlərinə olan tələbkarlığın səviyyəsinə görə digər beynəlxalq paktlardan yüksəkdə durur, belə ki, o, insan hüquqlarının müdafiəsi üçün dünyada ən radikal və effektiv beynəlxalq normalar sistemindən birini yaradır. Konvensiyaya müvafiq olaraq, Avropa Şurasının üzv-dövlətinin ərazisində olan bütün şəxslər nəzərdən keçirilən sənədlərdə müəyyən edilmiş standartlara müvafiq olaraq davranılmaq kimi ayrılmaz hüquqa yiyələnirlər. Bu normativ aktda təhlükəsizlik, fərdi və özəl həyat sahəsindəki fəaliyyətdə meydana çıxan əsas insan hüquqları bəyan edilir. Onların içərisində aşağıdakıları qeyd etmək olar: yaşamaq hüququ (2-ci m); qeyri-insani və ləyaqəti alçaldan rəftara yol verilməməsi (3-cü m); azadlıq və şəxsi toxunulmazlıq hüququ (5-ci m); şəxsi və ailə həyatına hörmət edilməsi, mənzil toxunulmazlığı və yazışmaların sirr saxlanılması hüququ (8-ci m); əmlakdan maneəsiz istifadə hüququ (Konvensiyaya əlavə №1 Protokolunun 1-ci m) və s.

Konvensiya təkcə insanın subyektiv hüquq və azadlıqlarını müəyyən etməklə qalmır, eləcə də dövlətləri onları müdafiə etməklə öhdəlikləndirir. Xüsusən, bu sənədin 6-cı maddəsinin 1-ci bəndində deyilir ki, aşkarlığın ədalət mühakiməsinin maraqlarına xələl gətirdiyi xüsusi hallarda ictimaiyyət və mətbuat bütün məhkəmə araşdırmasına və ya onun bir hissəsinə buraxılmaya bilər. Avropa Komissiyası və İnsan hüquqları üzrə Məhkəmə izah etdilər ki, böyük qorxu duyan şahidlərin müdafiəsi məqsədi ilə qapalı məhkəmə araşdırılmasının yol verilməsi tanınır. Sonralar analoji müddəa ədalətli mühakiməsi, eləcə də prosesdə iştirak edən şəxslərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə qapalı məhkəmənin keçirilməsinə yol verildiyi 25 iyun 1993-cü il tarixli Ədalətli məhkəmə araşdırmasına olan hüquq haqqında Bəyannamə layihəsində təsbit edildi, insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın əhəmiyyəti, həmçinin bu sənəd ilə nəzərdə tutulan öhdəliklərin həyata keçirilməsi və güman edilən pozuntuların araşdırılması üçün yaradılmış müdafiə mexanizmləri ilə şərtlənib. Həm təmin edilən hüquqların siyahısının genişləndirilməsi, həm də mövcud prosedurların təkmilləşdirilməsi yolu ilə onun təmin etdiyi müdafiəni genişləndirmək məqsədilə Konvensiyanın həyata keçirilməsinə daimi nəzarət aparılır.

Konvensiyanın sayəsində müsbət nəticələr əldə edilmişdir: Məsələn, Avropa komissiyasının və İnsan Hüquqları üzrə Məhkəmənin prosedur hüququ iştirakçı-dövlətlərdə qanunlara və sosial reallıqlara getdikcə daha çox təsir göstərir. Avstriya, Almaniya və İtaliya kimi ölkələrdə Konvensiyaya müvafiq olaraq, yeni cinayət-prosessual qanunvericilik qəbul edilmişdir. Avropa dövlətlərinin milli məhkəmələri get-gedə daha çox cinayət məhkəmə icraatı sferasında insan hüquqları məsələləri üzrə qərarlar qəbul edərkən Avropa Məhkəməsi presedent hüququna müraciət edir, Avropa Komissiyası və Məhkəmə tərəfindən hazırlanmış prinsip və standartları tətbiq edirlər. Avropa Şurası beynəlxalq təşkilata daxil olarkən dövlətlərin konvensiyanı ratifikasiya etməzdən əvvəl, öz milli qanunvericiliklərinə dəyişiklik etdiyi bir çox hallar məlumdur. Buna görə də, AR tərəfindən bu sənədin ratifikasiya edilməsi beynəlxalq standartların bizim ölkənin qanunvericiliyinə və praktik hüquqi həyatına daxil edilməsi ilə bağlı ciddi hüquqi nəticələrə gətirəcək.

Bu Konvensiyanın müddəalarının Tətbiqi və təfsiri İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin səlahiyyətindədir; Məhkəmə təsis edildiyi vaxtdan bu regional beynəlxalq təşkilatın üzv-dövlətləri üçün məcburi olan 650-dən çox qərar çıxarmışdır. Öz qərarlarında o, cinayət haqqında informasiya alınması və ondan sübut qismində istifadə edilməsi üzrə məhkəmənin və ibtidai istintaq orqanlarının real ehtiyaclarını öz aralarında barışdırmağa cəhd edir (7, 336-344).

Avropa Məhkəməsi eləcə də, hüquqazidd hərəkətlərin tətbiqi ilə təhdid etdiyi şahidlərin dindirilməsi zamanı müttəhimin məhkəmə araşdırması zalından kənarlaşdırılmasına yol verir (məsələn, ağır cinayətlərlə bağlı cinayət işlərinə baxılması zamanı). Bu zaman göstərilir ki, bu hal təqsiləndirilən şəxsin ona qarşı ifadə verən şahidləri sorğu-sual etmək və ya bu şahidlərin sorğu-sual edilməsini tələb etmək hüququna malik olduğunu təsbit edən İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin tələblərinə zidd deyil (8, 134-153).

Avropa Məhkəməsi belə bir nəticəyə gəlib ki, məhkəməyəqədərki mərhələdə əldə edilmiş ifadələrin istifadəsi əgər müdafiə hüququna tam riayət edilibsə, Konvensiyanın 6-cı maddəsinin 3 (d) və 1 paraqraflarına zidd deyil. Bu hüquqlar ya ifadə verildiyi anda, ya da cinayət prosesinin daha sonrakı mərhələlərində, təqsirləndirilən şəxsin ona qarşı ifadə vermiş şahidləri sorğu-sual etməyə və ya onların ifadələrinin əksini sübut etməyə imkanının olmasını tələb edir. İnsan hüquqları üzrə Avropa Komissiyası müdafiəçinin qalması şərti ilə təqsirləndirilən şəxsin məhkəmə zalından kənarlaşdırılmasını tələb edən müstəsna halların ola biləcəyi ilə razılaşır. Belə ki, Danimarkada şahidlərin təhlükəsizliyini təmin etmək məqsədi ilə müdafiə edilən şəxsin məhkəmə zalından kənarlaşdırıldığı cinayət işinə baxılmışdır. Bu halda, müdafiə edilən şəxsdən şahidin mühüm məlumatları gizlədilmişdir, bu məlumatlar onun onları gizli saxlamaqla öhdəlikləndirilmiş vəkilinə təqdim edilmişdir (9, 162-163).

Beləliklə, Avropa ictimaiyyətinin normativ aktlarında və İnsan hüquqları üzrə Avropa Məhkəməsinin hüquqtətbiqetmə fəaliyyətində cinayət mühakimə icraatı iştirakçılarına münasibətdə onların həyat və sağlamlıqlarına təhlükə törədə biləcək hüquqazidd tədiblər tətbiq edilirsə, sübutların bilavasitə araşdırılması prinsipindən geri çəkilməyə yol verilir.

Beynəlxalq prinsip və standartların hazırlanması sahəsində Avropa Şurasının fəaliyyəti, eləcə də tətbiq edilən cinayət prosesi iştirakçılarının dövlət müdafiəsi tədbirlərinin effektivliyinin asılı olduğu məhkəmə və hüquq-mühafizə orqanlarının vəzifəli şəxslərinin fəaliyyətini tənzimləyən normaların formalaşdırılmasına yönəlmişdir.

Xüsusən, Strasburqda 26 noyabr 1987-ci ildə Avropa Şurası çərçivəsində qəbul edilmiş işgəncələrin və qeyri-insani və ləyaqəti alçaldan rəftarın və cəzaların qarşısının alınması haqqında Avropa Konvensiyasında cinayət məhkəmə icraatı iştirakçılarının qorxudulması üzrə rəsmi şəxslərin hüquqazidd hərəkətlərinin qarşısını alan bir sıra effektiv tədbirlər ehtiva edilmişdir (1, 387).

Avropa dövlətlərinin hüquq-mühafizə orqanlarının işçiləri üçün bir növ beynəlxalq etik normalar məcəlləsi olan Polis haqqında Bəyannamənin müddəaları xüsusi diqqət tələb edir. Bu sənəd polis funksiyalarını yerinə yetirən vəzifəli şəxslərin üzərinə insan hüquqlarına və ləyaqətinə hörmət

etməklə mövcud qanunvericilik çərçivəsində ictimai təhlükəli hərəkətlərdən vətəndaşların müdafiəsi öhdəliyini qoyur (2, 98). Bundan başqa, Bəyannamə Avropa dövlətlərini öz funksiyalarını vicdanla yerinə yetirdikləri halda hüquq-mühafizə orqanlarının vəzifəli şəxslərinin lazımi müdafiəsi üçün tədbirlər görməyə sövq edir. Xüsusən, qeyd edilir ki, cəmiyyətin aktiv mənəvi və fiziki dəstəyinə ehtiyac duyan polis əməkdaşları üçün riskli olan şəraitdə fəaliyyət göstərməyə məcburdur. Öz vəzifələrini yerinə yetirilməli olduğu peşəkar, psixoloji və maddi şərait eyni zamanda onun namusunu, ləyaqətini və qərəzsizliyini müdafiə etməlidir.

Avropa Şurasının Nazirlər Kabineti eyni zamanda ən vacib hüquqi sənədlərdən biri olan «Məhkəmələrin müstəqilliyi, işinin effektivliyi və rolu» ilə bağlı № R (94) 12 saylı Tövsiyəni qəbul etmişdir. Bu sənəd təkcə Şuranın üzv-dövlətləri üçün deyil, eləcə də Mərkəzi və Şərqi Avropanın üzvlüyə müraciət etmiş dövlətləri üçün bu sahədə münimal standartları müəyyən edir. Məhkəmələrin müstəqilliyini artırmaq və beləliklə də, ədalətli hüquq sistemini yaratmağı arzu edən Tövsiyənin müəllifləri hökuməti məhkəmə hakimiyyətinin effektiv işi üçün zəruri olan tədbirləri aktivləşdirməyə çağırır (5, 125-126). Cinayət işləri üzrə qərar qəbul etmə prosesində hakimlər müstəqil olmalı və hər hansı bir məhdudiyyət, qanunsuz təsir, təzyiq, təhdid və hər hansı bir tərəfdən və ya hər hansı bir səbəbdən müdaxilə olmadan fəaliyyət göstərmək imkanına malik olmalıdır. Milli qanunvericilikdə hakimlərə bu cür təsir göstərməyə cəhd edən şəxslərə qarşı sanksiyalar nəzərdə tutulmalıdır. Hakimlər işi qərəzsiz, öz vicdanları ilə və mövcud hüquq normalarını yerinə yetirmək üçün faktları təfsir etməklə həll etmək azadlığına malik olmalıdırlar. Onlar baxdıqları işin halları ilə bağlı hər-hansı bir məhkəmədənkənar orqana məlumat verməyə borclu deyillər. İşin bölgüsündə tərəflərdən hər hansı birinin və ya işin gedişində maraqlı hər hansı bir tərəfin arzusu təsir göstərə bilməz. Hakimlərin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirlər qəbul edilməlidir, məsələn, məhkəmə məkanlarında mühafizənin məcburi olması və ya ciddi təhdid obyekti olan və ya ola biləcək hakimlərə polis müdafiəsinin təmin edilməsi (10, 61-62).

Avropa Şurasının 28 yanvar 1981-ci ildə qəbul etdiyi «Şəxsi xarakterli məlumatların avtomatlaşdırılmış işlənməsinə münasibətdə xüsusi şəxslərin müdafiəsi haqqında Konvensiya»ya xüsusi diqqət yetirilməlidir. Bu sənədin meydana gəlməsini texniki proqres və məlumatların elektron işlənməsinin geniş yayılması şərtləndirdi. Konvensiyanın məqsədi avtomatlaşdırılmış işlənməyə məruz qalan istənilən şəxsin məlumatlarının konfidensiallığının dövlət müdafiəsinin razılaşdırılmış prinsiplərinin hazırlanmasıdır. Nəzərdən keçirilən Konvensiya Avropa ölkələrini müxtəlif növ avtomatlaşdırılmış kartotekalarda qeydiyyata alınan şəxsi xarakterli məlumatların icazəsiz əldə edilməsinindən müdafiəsinin təhlükəsizliyi üçün

lazımi tədbirlərin qəbulu ilə öhdəlikləndirir. Bu qayda, eləcə də, hüquqazidd təsir təhlükəsi olduğu təqdirdə, cinayət prosesinin öz mülki vəzifələrini vicdanla yerinə yetirən iştirakçılarını da əhatə edir. Avropa Şurası eləcə də cinayət məhkəmə icraatının iştirakçılarının dövlət müdafiəsinə bilavasitə aid olan bir sıra beynəlxalq sənədlər hazırlamışdır. Məsələn, 24 noyabr 1983-cü ildə Zorakılıq cinayətlərin qurbanlarına dəymiş zərərin ödənilməsi üzrə Avropa Konvensiyası, 28 iyun 1985-ci ildə - Cinayət hüququ və cinayət prosesi çərçivəsində zərərçəkənlərin vəziyyətinə münasibətdə Tövsiyələr, 17 sentyabr 1987-ci ildə - «Cinayət və hakimiyyətdən sui-istifadə qurbanlarına münasibətdə ədalət mühakiməsinin əsas prinsipləri Bəyannaməsi»nin əsas sahələrini əhatə edən Qurbanlara kömək göstərilməsi və qurbanolmanın qarşısının alınması haqqında Tövsiyələr qəbul edilmişdir.

## ƏDƏBİYYAT


1. Avropa İnsan Hüquqları Məhkəməsi: Şərhlər, normativ aktlar və faktlar. Bakı: «İsmayıl» Nəşriyyat Poliqrafiya Müəssisəsi, 2002, 592 s.
2. Avropa İnsan Hüquqları Məhkəməsi. Konvensiyanın 2 və 3-cü maddələri üzrə məhkəmə təcrübəsi. Bakı: «Patronat- S» Şirkəti, 2004, 244 s.
3. Avropa insan hüquqları Məhkəməsi: Konvensiyanın 6-cı maddəsi ilə bağlı seçilmiş qərarlar. Bakı: Qanun, 2004, 440 s.
4. Beynəlxalq hüquq. Rus dilindən tərcümə. Tərcüməçi R.F.Məmmədov. Bakı: Qanun, 2002, 752 s.
5. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı: BDU, 2007, 484 s.
6. Əliyev Ə.İ. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusunun beynəlxalq-hüquqi tənzimlənməsi: nəzəriyyə və praktika. Bakı: Şirvannəşr, 2007, 600 s.
7. Дженис М., Кэй Р., Брэдли Э. Европейское право в области прав человека. (Практика и комментарии). Пер. с англ., М.: Права человека, 1997, 430 с.
8. Европейская конвенция о защите прав человека и основных свобод (Комментарий к ст.5 и 6). М., 1997, с. 134; 153
9. Хьертенберг Д. Вопросы соблюдения прав человека в связи с применением мер поощрения лиц, содействующих уголовному судопроизводству, и мер обеспечения их защиты//Зарубежный опыт правового судопроизводства и практика его применения. М., 2000, с. 162-163
10. Права человека: постоянная задача Совета Европы. Пер. с англ. М.: Права человека, 1996, 219 с.

## О СОВЕТЕ ЕВРОПЫ И СПРАВЕДЛИВОМ ИССЛЕДОВАНИИ СУДЕБНЫХ ЗАКОНОВ

**Т.Т.ВЕЛИЕВ**

### РЕЗЮМЕ

Деятельность этой международной организации, созданной на основе устава в 1949 году, заключается в проблемах защиты прав человека, правовом и гуманитарном сотрудничестве, социальной сфере, взаимных отношениях в культурной сфере, распространении информации и охраны природы. Именно, поэтому в рамках этой организации были созданы самые влиятельные механизмы защиты прав человека, а также защиты права справедливого судебного разбирательства.

**Ключевые слова:** Совет Европы, судебное исследования, права человека, национальное законодательство

## EUROPEAN COUNCIL AND THE RIGHT TO FAIR JUDICIAL INVESTIGATION

**T.T.VALIYEV**

### SUMMARY

The activity of this international organization, created on statute in 1949, was consentrated on the problems of the protection of the nature, spreading of information, mutual social relations, cultural, humanitarian and legal cooperation and protection of rights. Therefore, the most influential mechanism of ensuring human rights and the right of fair court investigation was created within this organization.

**Key words:** Council of Europe, legal proceedings, human rights, national legislation